# Daun sindromlu uşaqlar üçün ilkin pedaqoji yardımın təşkili metodları

**Nailə Tofiq qızı Hüseynova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*pedaqoqika üzrə fəlsəfə doktoru*
**E-mail:** nailyahuseyn72@gmail.com

**Rəyçilər:** p.ü.e.d. Ş.Q. Əliyeva,
p.ü.f.d., dos. S.R. Aslanova

**Açar sözlər:** Daun sindromu, erkən kompleks yardım, sosial və genetik risk qrupu, ünsiyyət, baçarıqların formalaşması, korreksiya, cəmiyyətə inteqrasiya

**Ключевые слова:** синдром Дауна, ранняя комплексная помощь, социальная и генетическая группа риска, общение, формирование умений, коррекция, интеграция в обществе

**Key words:** Down syndrome, early complex aid, social and genetic risk group, communication, skills development, correction, integration into society

Erkən kompleks yardım - geniş spektrlı uzun müddətli tibbi-psixoloji-sosia-pedaqoji xidmətlər sistemidir və inkişafında ləngiməsi olan sosial və genetik risk qrupuna aid olan uşaqların, kompleks xidmətlərinin nəzəri və praktik məsələlərini həll edir. Bu sistem xüsusi təşkil olunmuş tədbirlər sistemini təqdim edir və problemli uşağın təlim, tibbi-sosial və psixoloji təlabatlarının ödənilməsinə yönəlir. Erkən yaşlarında uşağın inkişaf xüsusiyyətləri, mərkəzi sinir sisteminin plastikliyi, pozulmuş funksiyaların kompensasiya imkanları erkən komplek yardımı şərtləndirir. Bu çür yardım məqsədəyönlü təsir yolu ilə, ilkin qüsur zamanı pozulmuş motor və psixi funksiyalarını korreksiya etmək və ikinçili kənaraçıxmaların yaranmasının xəbərdarlığına imkan verir.

Məhz bu proqramlar Daun sindromlu uşaqların sosial-emosional inkişafı sahəsində dəyişikliklərə gətirib çıxarır. Bu proqramlar əsasında yaranan prinsipləri aşağıdakı kimi izah etmək olar:

1. Daun sindromlu uşağın inkişafı mahiyyət etibarilə istənilən digər uşaqlardan fərqlənmir.
2. Daun sindromlu uşaqlara bir və ya digər vərdişlərin mənimsənilməsi üçün coxlu sayda təkrarlar vacibdir. Öyrədilmə prosesi tədricən getməlidir, prosesi mərhələlərə bölmək məqsədəuyğundur.
3. Daun sindromlu uşaqların inkişafına stimul vermək prosesində valideynlərin rolu çox böyükdür. Belə ki, onların qarşısında hər gün körpə tərəfindən yeni vərdişlərin qavaranılması və öyrənilməsinə lazımi kömək etmək vəzifəsi durur.

Qeyd olunan proqramlar ailələrə yardımçı ola bilər. Uşaqların inkişalarının gedişini izləyərək, valideynlər cari dövrdə baş verənlər və "yaxın inkişaf zonası", yəni növbəti vərdişlərin formalaşmasına stimul verən təfərrüatlı məsləhətlər və tapşırıqlar barədə təsəvvürə malik olurlar. Daun sindromlu uşaqlara göstərilən sistemli erkən pedaqoji yardım, ailədaxili aparılmalıdır. Valideynlər vacib olaraq korreksion iş prosesinə cəlb olunmalıdırlar. Belə pedaqoji yardım həm uşağın inkişaf prosesini yeni keyfiyyət səviyyəsinə çatdırır, həm də Daun sindromlu uşaqların cəmiyyətə inteqrasiyasını müəyyənləşdirir. Daun sindromlu uşaqlar üçün erkən yardım sisteminin qurulması xüsusi təhsil sisteminin inkişaf starategiyasıdır. Daun sin-

dromlu uşaqların ailə şəraitində kompleks yardımın yeni modelinə innovasion yanaşma abilitasiya prosesin bütün iştirakçılarının fəal qarşılıqlı əlaqəsini nəzərdə tutur (mütəxəssislərin, ailənin və uşağın). Erkən pedaqoji yardım Daun sindromlu uşaqların bir qisminə inteqrativ təlimə şərait yaradır. Pedaqoji yardım, Daun sindromlu uşaqlara ünsiyyət üçün müəyyən bacarıqların formalaşmasına imkan yaradır. Bu prosesdə həm müəllimlərin, həm də valideynlərin rolu bərabərdir.Təlimin səmərəli olması maksimal dərəcədə onun yaşından asılıdır. Uşaq üçün tərtib edilən fərdi tədris proqramı həm onun tələbatlarını ödəməlidir, həm də ailənin imkanlarını nəzərə alamalıdır.

Pedaqoji yardım prosesində Daun sindromlu uşaqlar məktəbəqədər yaş dövründə inkişaf etdirilən müxtəlif bilik, bacarıq və vərdişlərini təkmilləşdirirlər. Məktəb, uşağın qabliyyətlərini inkişaf edir, məktəbdə yaradılan təlim mühiti, dərslər, Daun sindromlu uşaqların fərdiyyətinə müsbət təsir göstərir. Xüsusi təhsil müəssisələri gələcək sosial adaptasiya üçün təcrübə bazasını yaradır. Uşaqlar əsas akademik qaydaları, fiziki imkanlarını, özünəxidmət vərdişlərini və ünsiyyət bacarıqlarını inkişaf etdirə bilirlər. Düzgün motivləşdirmə təlim prosesini daha da səmərəli edir. Təlimin səmərəli olması üçün müəllimlərin bu iş prosesinə pozitiv yanaşmaları vacibdir. Müəllimlər pedaqoji yardım prosesini təşkil edən zaman didaktik məşğələlərdən hərtərəfli istifadə etməlidirlər. Bu məşğələlərdə təlim prosesi zamanı şəraitin qurulmasına xüsusi diqqət yetirməlidirlər.

Didaktik məşğələlər zamanı Daun sindromlu uşaqlara verilən bütün çalışmalar şərti olaraq hər bir çalışmalar blokunda təmsil olunur və aşağıdakı bölmələrə ayırılır.

- *Diqqət və yaddaş.*

Bir neçə anlayışla eyni vaxtda məşq etmək, bir hərəkəti yerinə yetirmək və bununla yanaşı növbəti addımın necə olacağını yadda saxlamaq bacarığı ən müxtəlif fəaliyyət növlərində mühüm əhəmiyyətə malikdir. Yazını oxuyarkən onu bitirməmiş başlanğıc sözləri yaddan cıxarmamaq, sözü yararkən bütün hərfləri yadda saxlamaq, əşyaları sadalayarkən neçə ədəd olduğunu yadda saxlamaq, telefonla danışarkən südün daşdığını yaddan çıxarmamaq lazımdır.

- *Məntiqi çalışmalar.*

Abstrakt təfəkkürün inkişafı üçün zəmin yaradır, əşyavi material ilə bağlı təhlil və assosiasiya etmə qabiliyyətlərini inkişaf etdirir.

- *Ölçü, forma, rəng.*

Əşyaların ölçü, forma və rəngi anlayışlarının formalaşması və onların fəal şəkildə istifadə edilməsi.

- *Quruculuq fəaliyyəti.*

Quruculuq fəaliyyəti, nümunənin surətini köcürmə bacarığı, süjetli şəkil və sxemi təhlil etmə təsəvvür və təhlil qabiliyyətlərinin inkişafı üçün əsasdır. Hissələrdən tamın yığılması oxunun prototipidir. Sxem əsasında qurma isə yazının öyrənilməsindən xəbər verir.

- *Sayın öyrənilməsi.*
- Hesabın öyrənilməsi rəqəm ardıcıllığı, cəmləməklə əşyaların sayılması ilə bağlı bilikləri, götürülməsi xahiş edilən əşyaların sayını bilmək bacarığı, kəmiyyət və sayın uyğunlaşdırılması, hesablayıcı materialdan istifadə
- *Oyun fəaliyyəti*
- Süjet xətti və rol oyunları uşağın gerçək həyatda baş verən hadisələrin məqsədini və ardıcıllığını başa düşməsinə yardım edir, yaddaşı, assosiativ təfəkkürü və planlaşdırmanı inkişaf etdirir, ona gələcəkdə öz oyunlarına və digər uşaqlarla oyunlarına daxil edə biləcəyi süjet ünsürlərini təqdim edir. Uşaqları oyuna öyrətməklə biz onun öz yaşıdları ilə əlaqə qurmaq imkanlarını asanlaşdırır, onun ətraf aləmlə bağlı biliklərini genişləndirir və çevik davranışının

əsasını qoyuruq. Bu isə nəticə etibarilə onu daha sərbəst və müstəqil edir.

Daun sindromlu uşaqların idrak fəaliyyətinin ardıcıl formalaşması və inkişafına yönəlmiş çalışmalar bloku aşağıda qısa izah olunur.

*Blok 1.* Obyektin daimiliyi barədə təsəvvür və "eynilik" anlayışına əsaslanan çalışmalar.

1. Obyektin daimiliyi barədə təsəvvür.
2. "Eynilik" anlayışının formalaşdırılması.
3. Növə görə çeşidləmə.
4. Sərt sxem əsasında qurma. Görmə-hərəkət əlaqəliyinin inkişaf etdirilməsi.
5. Nümunə əsasında qurma.
6. Hissələrdən tamın yığılması.
7. "Bir" anlayışının formalaşdırılması.
8. Oyuncaqla funksional hərəkətlərin sərbəst şəkildə yerinə yetirilməsi.
9. Valideynlərin rəhbərlyi altında ayrı-ayrı süjetli – oyun fəaliyyətinin yerinə yetirirlməsi.

*Blok 2.* Bir anlayışla işləmək bacarığı əsasında çalışmalar.

1. Təqdim edilmiş 3-4 obektin yadda saxlanılması.
2. Ölcü.
3. Forma.
4. Rəng.
5. Üst-üstə qoymaqla qurma.
6. "Bir", "iki" anlayışlar.
7. Sərbəst şəkildə ayrı-ayrı süjetli-oyun fəaliyyətinin yerinə yetirilməsi.
8. Valideynin rəhbərliyi altında ardıcıl bir neçə oyun hərəkətlərindən ibarət süjetli oyun.

*Blok 3.* İki anlayışı eyni zamanda məşq etdirmək bacarığına əsaslanan çalışmalar.

1. İki hissədən və ya iki mənalı sözdən ibarət tapşırığın yerinə yetirilməsi.
2. Assosiativ əlaqəli cütliklərin seçilməsi.
3. "Orta" anlayışının formalaşdırılması. Ölçünün sərbəst şəkildə deyilməsi.
4. İki əlamətinə görə əşyanın seçilməsi.
5. Növə görə təsnifat.
6. Sxem üzrə qurma.
7. Nümunə əsasında kərpicdən qurma.
8. Nümunə əsasında hesablama çubuqlarından qurma.
9. Hissələrdən tamın quraşdırılması.
10. Saymağın öyrədilməsi.
11. Cəmi hesablamaqla üçə qədər əşyanın bir-bir sayılması.
12. Cəmi hesablamaqla şəkildə təsvir edilmiş üçə qədər əşyanın bir-bir sayılması.
13. Ardıcıl bir neçə oyun hərəkətlərindən ibarət süjetli oyun.
14. Valideynin rəhbərliyi altında rollardan birinin uşaq tərəfindən ifadə edildiyi süjetli-rol oyunu.

Qeyd olunan çalışmalar vasitəsilə uşaqların müxtəlif xarakterli fəaliyyət növlərinin təhlili aparılmalı və əldə etdikləri uğurlar qiymətləndirilməlidir .

**Məqalənin aktuallığı.** Daun sindromlu uşaqların necə inkişaf etməsi, onların hansı inkişaf perespektivlərinə və gerçəklikdə hansı çətinliklərə malik olduqları haqqında təsəvvürlər əksər hallarda çoxsaylı düzgün olmayan məlumatlarla təhrif edilmişdir. Lakin bu uşaqların inkişafı üçün vacib olan şəraitin mövcudluğu, ailədə olan münasibətlər onun potensialını maksimum istifadə edilməsi üçün əsas şərtdir.

**Məqalənin elmi yeniliyi.** Daun sindromlu uşaqların idrak fəaliyyətinin ardıcıl formalaşması və inkişafına yönəlmiş çalışmalar blokları ayrılıb. Hər bir blokun mövzusuna aid calışmaların siyahısı verilib.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə təqdim edilən məlumatlardan korreksiyaedici təlim ixtisasında təhsil alan tələbələr nəzəri və praktik biliklərinin artırılmasında istifadə edə bilərlər. Bundan əlavə xüsusi təhsil sistemində çalışan xüsusi pedaqoqlar korreksiya işinin tərtibində təqdim olunan çalışmalardan faydalana bilərlər.

## Ədəbiyyat

1. Медведева Т.П. Развитие познавательной деятельности детей с синдромом Дауна. М., 2010.

2. П.Л. Жиянова, Е.В. Поле, Т.Н.Нечаева. Формирование основных двигательных навыков у детей с синдромом Дауна» М., 2010, 68 с.

3. П.Л. Жиянова. Формирование навыков общения и речи у детей с индромом Дауна. М., 2010, 140 с.

4. Комплексное развитие детей с синдромом Дауна: групповые и индивидуальные занятия: Методическое пособие. М.: Благотворительный фонд «Даунсайд», 2004, 264 с.

**Н.Т. Гусейнова**

## Методы организации ранней педагогической помощи для детей с синдромом Дауна

## Резюме

Ранняя комплексная помощь – решает теоретические и практические вопросы комплексного обслуживания детей с задержками развития, которые относятся к социальным и генетическим группам риска. Ранняя системная педагогическая помощь которая оказывается детям с синдромом Дауна должна осуществляться внутри семьи. Для этого родители обязательно должны быть вовлечены в коррекционный процесс. Такая форма педагогической помощи подводит ребенка с синдромом Дауна и к качественному уровню процесса развития, и определяет их интеграцию в обществе.

Дети с синдромом Дауна должны постоянно находится под контролем родителей и специалистов, это обеспечивает организацию условия их социального и образовательного процесса. Ранняя педагогическая помощь так же создает условия для инклюзивного образования детей с синдромом Дауна. Педагогическая помощь создает определенные возможности для формирования умения общаться.

**N.T. Huseynova**

## The methods of organizing primary pedagogical assistance for children with Down syndrome

### Summary

Early comprehensive aid solves theoretical and practical issues of complex services for children belonging to the social and genetic risk group with developmental delays. Systematic early pedagogical aid for children with Down syndrome should be provided within the family. Parents should be involved in the correctional process. Such pedagogical aid not only brings the child's development process to a new level of quality, but also determines the integration of children with Down syndrome into society.

Children with Down syndrome should be monitored by professionals and parents at every stage of development, in a process that shapes the social and educational environment. Early pedagogical assistance facilitates integrative learning for some children with Down syndrome. Pedagogical support allows children with Down syndrome to develop certain communication skills.

**Redaksiyaya daxil olub:** 21.05.2020